

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 aprel 2026-cı il №23 (3025) https://mod.gov.az Qiymıəti 30 qəpik


## Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdikləri igidliyə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Məmmədov Azər Kərəm oğlu - polkovnik-leytenant

**“Vətən uğrunda” medalı ilə**

Babayev Elmar Elxan oğlu - mayor
İsmayılov Nicat Əbülfəz oğlu - mayor
Quliyev Rüfət Qüdrət oğlu - mayor
Mədətov Fərid Fikrət oğlu - mayor
Babazadə Vaqif Elçin oğlu - kapitan
Səmədov Mədət Fərzulla oğlu - kapitan
İbrahimov Vüsal Cümşüd oğlu - baş leytenant
Ağabalayev Vazeh Xanbala oğlu - leytenant
Ağayev Yaşar Təvəkkül oğlu - ehtiyatda olan baş miçman
Əmranov Rəşad Murtuzəli oğlu - ehtiyatda olan baş miçman
İmamverdiyev Aqil Əzim oğlu - gizir
Novruzlu Səbuhi Rövşən oğlu - çavuş

**“İgidliyə görə” medalı ilə**

Quliyev Şəhriyar İlqar oğlu - polkovnik-leytenant
Quliyev Elnur Əlifağa oğlu - mayor
Mirzəyev Hikmət Elçin oğlu - mayor
Əhmədov Emin Seymur oğlu - leytenant
İbrahimli Tacəddin Əmirullah oğlu - gizir
İsmayılov Oqtay Şahsuvar oğlu - gizir
Quliyev Vaqif İbrahim oğlu - gizir

**“Hərbi xidmətlərə görə” medalı ilə**

Daşdəmirov Vilayət Allahyar oğlu - mayor
Muradov Zaman Muqabil oğlu - mayor
Alxasov Taleh Aydın oğlu - kapitan
Salmanov Tərlan Babək oğlu - kapitan
Abdullayev Rövşən Əhədulla oğlu - gizir
Ağayev Şəmsəddin Əsədulla oğlu - gizir
Babayev İlknur Ramiz oğlu - gizir
Dostalılı Dostalı Şirvan oğlu - gizir
Əliyev Şahin Məhəmməd oğlu - gizir
Xəlilzadə Bəşir Məhəmməd oğlu - gizir
İslamov Emin Bəxtiyar oğlu - gizir
Qurbanzadə Ülvi Babaquli oğlu - gizir
Mərdənov Cəmil Omar oğlu - istefada olan gizir
Muxtarov Kamal Qismət oğlu - gizir
Nuriyev Toğrul Əhliman oğlu - gizir
Yolçiyev Bəşir Qoca oğlu - gizir
Həsənov İsmayıl Bəhlul oğlu - baş çavuş
Nəhmədov Xəzər Sabir oğlu - çavuş
Necəfov Üzeyir Hacı oğlu - ehtiyatda olan kiçik çavuş
Süleymanov Afiq Ziyafət oğlu - kiçik çavuş
Sadıqov Vüsal İbrahim oğlu - əsgər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 aprel 2026-cı il

## Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Gürcüstana dövlət səfərinə gedib.*

Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 6-da Tbilisidə Qəhrəmanlar Memorialını ziyarət ediblər.

Qəhrəmanlar Memorialında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısı Memorialın önünə əklil qoyub.

Sonra Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirilib.

* * *

Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tbilisidə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında xalqımızın Ümummilli Liderinin abidəsini ziyarət ediblər.

Dövlətimizin başçısı abidənin önünə əklil qoyub.

* * *

Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın paytaxtı Tbilisidə rəsmi qarşılanma mərasimi olub.

Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verib.

Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirilib.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

* * *

Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək görüşü olub.

Söhbət zamanı Azərbaycan-Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edilərək, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, yaşıl enerji, nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin münasibətlərimizin genişlənməsində roluna toxunulub.

Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri nəqliyyat və enerji layihələrinin önəmi vurğulanıb, onların strateji və iqtisadi əhəmiyyəti qeyd edilib.

Görüşdə Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsi baxımından Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin rolu vurğulanıb.

Azərbaycan və Gürcüstan prezidentləri ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından məmnunluqlarını bildiriblər, əlaqələrimizin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdən sonra dövlətimizin başçısı xatirə kitabına ürək sözlərini yazıb.

* * *

Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü olub.

**(Ardı 2-ci səhifədə)**

## “Anadolu Ankası-2026” beynəlxalq təliminə start verilib

Türkiyə Respublikasının Konya şəhərində müxtəlif ölkələrin hərbçilərinin iştirakı ilə keçirilən "Anadolu Ankası-2026" ("Anatolian Phoenix-2026") beynəlxalq axtarış-xilasetmə təliminə start verilib.



Müdafiə Nazirliyi xəbər verir ki, təlimin məqsədi müxtəlif ölkələrin axtarış-xilasetmə qüvvələri arasında qarşılıqlı fəaliyyətin və operativ uyğunluğun artırılması, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, şəxsi heyətin peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi, qəza vəziyyətlərində



ekipaj üzvlərinin axtarılması və xilas edilməsi, suda və quruda, eləcə də çətin relyef şəraitində xilasetmə əməliyyatlarının effektiv icrası, pilotların təhlükəsiz təxliyəsi, havadan dəstəyin təmin edilməsi və aviayönləndiricilərin fəaliyyətinin təkmilləşdirilməsi üzrə bacarıqların inkişaf etdirilməsidir.

Qeyd edək ki, 17 aprel tarixinədək davam edəcək beynəlxalq təlimdə ölkəmizi Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları, paraşüt-desant və axtarış-xilasetmə xidmətinin mütəxəssisləri, aviayönləndiricilər, texniki heyət və aviasiya vasitələri təmsil edir.

# Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri



(Əvvəli 1-ci səhifədə)

Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə geniş tərkibdə görüşü olub.

* * *

Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bəyanatla çıxış edib.

### Baş nazir İrakli Kobaxidzenin bəyanatı

- Salam, Zati-aliləri cənab Prezident.

Hörmətli nazirlər.

Xanımlar və cənablar.

Media nümayəndələri.

Əvvəlcə Gürcüstanın əziz dostu cənab İlham Əliyevə Gürcüstana səfər etdiyinə görə səmimi təşəkkürümü bildirmək istəyirəm. Onun Gürcüstana gəlişi hamımız üçün xüsusi şərəfdir.



Cənab Prezident, Sizi Gürcüstanda qəbul etmək və həm ikitərəfli əməkdaşlığa aid məsələləri, həm də regiondakı cari prosesləri müzakirə etmək imkanından məmnunam. Mən bu fürsətdən istifadə edərək, bütün Gürcüstanın Katolikos Patriarxı, Zati-müqəddəsləri İkinci İlyanın vəfatı ilə əlaqədar Azərbaycanın və şəxsən Sizin verdiyiniz başsağlığına görə dərin təşəkkürümü bildirirəm.

Əsrlər boyu xalqlarımızı yaxşı qonşuluq və xüsusi tarixi dostluq bağlayıb. Bu, məntiqi olaraq, dövlətlərimiz arasında güclü strateji tərəfdaşlığı əks etdirir. Gürcüstan ilə Azərbaycan arasında münasibətlər müxtəlif istiqamətlər üzrə dinamik qaydada inkişaf edir. Biz bu prosesdə Sizin şəxsi səylərinizi və iştirakınızı xüsusi dəyərləndiririk. Mən, həmçinin həmin münasibətlərin inkişafında xüsusi rol oynayan nümayəndə heyətinin üzvlərinə, hökumət üzvlərinə və səfirlərə təşəkkür edirəm.

Mən Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə Azərbaycanın verdiyi qəti dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Gürcüstan öz müstəqilliyini bərpa etdikdən etibarən hər zaman Azərbaycanın milli maraqlarının, suverenliyinin və ərazi bütövlüyünün güclü tərəfdarı olub, hazırda tərəfdarıdır və gələcəkdə də tərəfdar qalacaq. Bu gün keçirilmiş görüş çərçivəsində, biz nəinki ikitərəfli münasibətləri, həmçinin bütövlükdə Cənubi Qafqaz regionunun gələcəyinə dair məsələləri təfərrüatı ilə müzakirə etdik.

Biz bu xüsusda Azərbaycan ilə Ermənistan arasında cari sülh prosesini alqışlayırıq. Gürcüstan dinc yanaşı yaşamağı, konstruktiv əməkdaşlığı və regionda yeni təşəbbüsü qəti şəkildə dəstəkləyir. Lazım olan təqdirdə, biz hər zaman dialoqa və sülh proseslərinə şərait yaratmağa hazırıq. Cənubi Qafqaz ölkələri arasında əməkdaşlıq



bütöv region üçün yeni perspektivlər açır. Qlobal geosiyasi dəyişikliklər, ümumiyyətlə, Orta Dəhlizin vacibliyini, o cümlədən Qara Dənizin və Cənubi Qafqazın strateji məkan kimi əhəmiyyətini daha da artırır.

Asiya ilə Avropanı birləşdirən körpü kimi ölkələrimiz daşımalarda mühüm rol oynayır. Bu baxımdan, biz nəqliyyat və logistika infrastrukturunun inkişafına və müasirləşdirilməsinə xüsusi önəm veririk. Gürcüstan ilə Azərbaycan dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlarıq.

Görüş zamanı biz, həmçinin ticarət və iqtisadi əməkdaşlıq perspektivlərini müzakirə etdik. Azərbaycan Gürcüstanın ən iri ticarət tərəfdaşlarından biri kimi qalır və həmçinin iqtisadi münasibətlərin artırılan sərmayələr sayəsində daha da dərinləşəcəyini gözləyirik. Biz yüksək səviyyədə dialoqu davam etdirməyə və müxtəlif sahələrdə əməkdaşlığı daha da dərinləşdirməyə hazır olduğumuzu ifadə etdik.

Əminəm ki, strateji tərəfdaşlığımız xalqlarımız və ölkələrimizin rifahı naminə uğurla inkişaf etdirməkdə davam edəcək. Prezidentin səfəri bu baxımdan mühüm rol oynayır.

Yekun olaraq, cənab Prezident, dövlətlərimiz arasında



münasibətlərin gücləndirilməsinə verdiyiniz şəxsi töhfəyə, səfərə gəldiyinizə və məhsuldar əməkdaşlığa görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Cənab Prezident, ikitərəfli münasibətlərin dərinləşməsi və inkişafına verdiyiniz şəxsi töhfəyə görə xüsusən minnətdaram.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Baş nazir.

Əziz dostlar.

Cənab Baş nazir, dəvətə və qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən qardaş Gürcüstanda olmaq mənim üçün böyük şərəfdir. Əminəm ki, mənim səfərim iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək. Bu gün müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, Gürcüstan və Azərbaycan hər zaman olduğu kimi bir yerdədir. Bizim tarixi əlaqələrimiz dövlətlərarası əlaqələrimiz üçün möhkəm zəmindir. Əsrlər boyu gürcü və Azərbaycan xalqları dostluq, qardaşlıq şəraitində yaşamışlar və bu gün bu ənənələr davam etdirilir. Bu gün iki müstəqil dövlət kimi Gürcüstan və Azərbaycan inamla inkişaf edir. Fürsətdən istifadə edərək, Gürcüstanın əldə etdiyi uğurlar münasibətilə Sizi və hökumətinizi təbrik etmək istəyirəm.

Gürcüstanın dinamik iqtisadi inkişafı göz önündədir. Gürcüstanda çox müsbət sərmayə iqlimi var və məhz buna görə bir çox investorlar, o cümlədən Azərbaycan investorları Gürcüstana böyük maraq göstərirlər. Təbii ki, bütün uğurların təməlində əsas şərt, əsas amil siyasi sabitlikdir. Bu siyasi sabitlik Gürcüstanda var. Bunun təminatçısı gürcü xalqıdır və Sizin apardığınız siyasətdir. Biz sizin dostlarınız, qonşularınız kimi buna sevinirik və əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək.

Biz bütün beynəlxalq təşkilatlarda da hər zaman bir-birimizi dəstəkləyirik. Cənab Baş nazir qeyd etdiyi kimi, hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərimizin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləyəcəyik.

Biz iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Mən səfərdən öncə arayışlara baxdıqda gördüm ki, keçən il bizim ticarət dövriyyəmiz 800 milyon dollardan çox olmuşdur və bu ilin ilk rübündə yenə də artım kifayət qədər yüksəkdir. Belə gedərsə, biz bəlkə də ilin sonuna qədər bir milyard rəqəminə də çatacağıq. Qeyd etdiyim kimi, Gürcüstanda mövcud olan çox müsbət sərmayə iqlimi Azərbaycan investorlarını da həvəsləndirir və bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulmuşdur. Biz bu gün həm Azərbaycan, həm də Gürcüstan üçün yeni investisiya layihələri haqqında fikir mübadiləsi aparmışıq və nə vaxtsa üçüncü ölkələrə də birgə sərmayə qoyuluşu nəzərdə tutula bilər.



(Ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri



(Əvvəli 2-ci səhifədə)

Təbii ki, biz hər dəfə görüşəndə bir çox məsələləri müzakirə edirik, o cümlədən regional vəziyyət, regional təhlükəsizlik məsələlərini. Bu gün də istisna deyil. Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim.

Cənab Baş nazir Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə də toxundu. Deyə bilərəm ki, bu prosesi gücləndirmək üçün, sadəcə olaraq, imzalanmış sənədlər yetərli deyil. Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək və bunun ən yaxşı istiqaməti də ticarətdir. Bu gün Azərbaycanla Ermənistan arasında ticarət Gürcüstan vasitəsilə həyata keçirilir. Buna görə Gürcüstan hökumətinə öz təşəkkürümü bildirmək istərdim.

Azərbaycan energetika sahəsində uzun illər bir çox ölkələrin enerji təhlükəsizliyini gücləndirən addımlar atmışdır. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir. Ancaq bu ixrac yenə də Gürcüstandan başlayır və Gürcüstan burada birinci ölkədir. Həm Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Biz bu mövcud infrastruktur haqqında kifayət qədər danışmışıq. Bütün bu infrastruktur göz önündədir və artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. Cənub Qaz Dəhlizi də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. Biz sonra bu dəhlizlər üzərindən nəqliyyat dəhlizlərini də inşa etdik və bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta Dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Bu bizim üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcəkdir.

Bir sözlə, bizim ikitərəfli gündəliyimiz çox genişdir və bu gündəlik getdikcə genişlənir. Yeni layihələr, yeni fikirlər ortaya atılır və birgə səylərlə biz bunları həll edirik. Bunun əsas şərti və amili, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdir. Bizim münasibətlər deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulubdur. Əminəm ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik.





Fürsətdən istifadə edərək, qardaş Gürcüstan xalqına sülh, əmin-amanlıq, firavanlıq, xoşbəxtlik arzulayıram. Dəvətə və qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram.

* * *

Aprelin 6-da Gürcüstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Tbilisidə Gürcüstanın hakim partiyasının ("Gürcü Arzusu") fəxri sədri Bidzina İvanaşvilinin adından lanç verilib.

* * *

Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri başa çatıb.

Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Gürcüstanın Baş naziri İrakli Kobaxidze yola salıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin rəhbər heyəti taktiki təlimin gedişatını yoxlayıb







Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordumuzun döyüş hazırlığı və şəxsi heyətin peşəkarlığı gündən-günə daha da artırılır.



Müdafiə Nazirliyinin rəhbərliyi və digər vəzifəli şəxslər "N" hərbi hissəsində keçirilən döyüş atışlı taktiki təlimin gedişatını yoxlayıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənova xəritə üzərində təlimin mövzusu, mərhələləri və icra olunma ardıcıllığı məruzə edilib.

Qeyd olunub ki, cari ilin hazırlıq planına uyğun olaraq müasir döyüş üsulları nəzərə alınmaqla keçirilən taktiki təlimin əsas məqsədi yeni əməliyyat konsepsiyasına uyğun komandirlərin çevik qərar qəbuletmə qabiliyyətinin artırılması, qarşılıqlı uzlaşma şəraitində bölmələrin idarə edilməsi, eləcə də şəxsi heyətin nəzəri və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

Müdafiə Nazirliyinin rəhbərliyi bölmələrin taktiki fəaliyyətlərini və şəxsi heyətin döyüş hazırlığını yüksək qiymətləndirib.



# Qazaxıstan müdafiə nazirinin rəqəmsallaşma üzrə müavini ölkəmizdə səfərdədir







*"Azərbaycan və Qazaxıstan müdafiə nazirlikləri arasında imzalanmış ikitərəfli əməkdaşlıq planına əsasən, bu ölkənin nümayəndə heyəti Azərbaycana səfər edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, qonaqlar əvvəlcə Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının məzarlarını ziyarət edib, üzərlərinə gül dəstələri düzərək öz ehtiramlarını nümayiş etdiriblər.

Müdafiə Nazirliyində keçirilən görüşdə müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov qazaxıstanlı həmkarı Darxan Axmediyev və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə ətraflı fikir mübadiləsi aparıb.



Görüşdə Azərbaycanla Qazaxıstan arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

Sonra nümayəndə heyəti Müdafiə Nazirliyinin Əməliyyat Baş İdarəsini, Rabitə və İnformasiya Texnologiyaları Baş İdarəsini, həmçinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsini ziyarət edərək burada yaradılmış şərait və xidməti fəaliyyətlərlə maraqlanıblar.

Qazaxıstanlı qonaqlar Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, eləcə də Şəxsi Heyət Baş İdarəsində olaraq, "Şəxsi Heyət Elektron Məlumat Sistemi" ilə tanış olublar.

Səfər çərçivəsində nümayəndə heyətinə Müdafiə Nazirliyinin Kibertəhlükəsizlik Mərkəzi və "N" hərbi hissəsində Azərbaycan Ordusunun arsenalında olan müasir silah sistemləri və informasiya texnologiyalarının vasitələrinin kibertəhlükəsizliyinin təmin olunması istiqamətində yerinə yetirilən fəaliyyətlər, müasir rabitə texnologiyalarının tətbiqi və kibertəhdidlərə qarşı süni intellekt əsaslı kibermüdafiə vasitələri haqqında məlumat verilməsi nəzərdə tutulub.

Nazirliyin müvafiq qurumları ilə tanışlıq zamanı nümayəndə heyəti üçün bölmələrin strukturu və fəaliyyət istiqamətləri barədə brifinqlər təqdim olunub, qonaqların sualları cavablandırılıb.

Qeyd edək ki, Qazaxıstan Müdafiə Nazirliyinin nümayəndə heyətinin səfərinin əsas məqsədi ordu quruculuğu sahəsində qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.



# Kursant Hərbi Elmi Cəmiyyətinin növbəti konfransı keçirildi



*Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda "Kursant Hərbi Elmi Cəmiyyətinin 21-ci Konfransı" keçirildi.*

Konfransda institutun zabitləri, professor-müəllim heyəti, kursantlar, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının, Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyasının, Daxili Qoşunların Hərbi İnstitutunun və Dövlət Gömrük Komitəsinin nümayəndələri iştirak etdilər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü, suverenliyi uğrunda gedən döyüşlərdə canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni hərbi orkestrin müşayiəti ilə səsləndirildi.

Konfransda Heydər Əliyev adına Hərbi İnstitutun rektorunun tədris işləri üzrə müavini polkovnik Elman Məmmədov çıxış edərək bildirdi ki, son illərdə ölkəmizin bütün sahələrində olduğu kimi, hərbi təhsil sistemində və hərb elmində də uğurlara nail olunub. "Belə ki, Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alan kursantlarda elmi-tədqiqat işlərinə də maraq artıb. Onlar Kursant Hərbi Elmi Cəmiyyətinin xətti ilə elmin müxtəlif sahələrində elmi-texniki tərəqqinin son nailiyyətlərini praktiki fəaliyyətlərində tətbiq etməyi və tədqiqat işlərinin aparılmasını öyrənirlər".

Qeyd olundu ki, hərbi təhsil sistemində də elmi-tədqiqata maraq artıb. Kursant Hərbi Elmi Cəmiyyətinin strateji məqsədi elmi düşüncəyə malik, analitik təhlil aparma bacarığı və innovativ yanaşan peşəkar zabitlərin hazırlanmasına, kursantların elmi-tədqiqat fəaliyyətinə cəlb olunmasına, nəzəri biliklərinin praktiki tətbiqinə, müasir texnologiyalar və hərb elminin mənimsənilməsinə, müasir döyüş çağırışlarına uyğun qərarlar qəbul edə bilən peşəkar zabit kadrlarının formalaşdırılmasına, həmçinin kursantların elmi rəhbərlərlə birgə yaradıcılıq mühitinin inkişafını təmin etməklə, ölkənin müdafiə potensialının gücləndirilməsinə töhfə verməkdir.

İnstitutun elmi-tədqiqat şöbəsinin dosenti, fizika üzrə fəlsəfə doktoru Emin Nəsirov bildirdi ki, Azərbaycanda hərb elminin inkişaf etdirilməsi, hərb tarixinin araşdırılması, yeni texnologiyaların işlənib hazırlanması, Silahlı Qüvvələrin döyüş hazırlığının və qabiliyyətinin artırılması məsələlərində hərbi nəzəriyyə və təcrübənin elmi cəhətdən işlənməsi məqsədilə Hərbi institutda elmi-tədqiqat işlərinin aparılması prioritet kimi qarşıda dayanan məsələlərdəndir. Hərbi elmi-tədqiqat işlərinin məqsədyönlü şəkildə aparılması, istər tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, istərsə də müasir tələblərə cavab verə biləcək savadlı zabit kadrlarının hazırlanmasına böyük töhfə verir.



Heydər Əliyev adına Hərbi İnstitutun Quru Qoşunları və Ümumi Fənlər Fakültəsinin kursantı Polad Məlikov "Silahlı münaqişələr hüquqpozma predmeti kimi: beynəlxalq humanitar hüququn müasir çağırışları" mövzusunda məruzə etdi. "Silahlı münaqişə ayrı-ayrı dövlətlər və ya sosial qruplar arasında iqtisadi, siyasi, milli-etnik və digər ziddiyyətlərin hərbi gücdən istifadə yolu ilə həllinə yönəlmiş silahlı qarşıdurmadır". Silahlı münaqişələrə əsasən, dövlətlər arasında olan mübahisəli ərazilər, dini, etnik, irqi zəmində baş verən toqquşmalar və qanunsuz silahlı qruplaşmalar ilə dövlət orqanları arasında baş verən qısa döyüşlərin nəticələrindən danışdı.

Hərbi Hava Qüvvələri fakültəsinin kursantı Rövşən Nemətlinin "Göy üzünün fəthi: 44 günlük Vətən müharibəsində Azərbaycan Hərbi Hava Qüvvələrinin rolu" mövzusunda apardığı təhlil də maraqlı oldu.

Konfransda çıxış edən kursantlara və onların elmi rəhbərləri - mayor Əzim Axundova və Naibə Şəmşiyevaya institutun rəhbərliyi tərəfindən fəxri fərman təqdim edildi.

Konfransa dəvət olunan qonaqlar Hərbi institutda yaradılmış tədris bazası, həmçinin kursantlar üçün yaradılan şəraitlə yaxından tanış oldular. Onların muzey və ideoloji mərkəzə ziyarəti də təşkil olundu, xatirə şəkilləri çəkildi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Sovet İttifaqı Qəhrəmanı Oleq Babakın xatirəsi Poltavada anılıb







1991-ci il aprelin 7-də Qubadlı rayonunda mülki Azərbaycan vətəndaşlarını qoruyarkən erməni silahlı birləşmələri tərəfindən qətlə yetirilən Oleq Babakın xatirəsi doğulub böyüdüyü Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində anılıb.

Anım tədbirindən öncə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ukraynadakı hərbi attaşesi birinci dərəcəli kapitan Əziz Nuriyev, səfirliyimizin müşaviri Fərid Babayev, Azərbaycanın Poltavadakı diasporunun rəhbəri Füzuli Qənbərov O.Babakın valideynlərinə baş çəkiblər. O.Babakın valideynləri Azərbaycan dövlətinin onların problemləri ilə həmişə yaxından maraqlandığını vurğulayıblar.

Sonra tədbir iştirakçıları O.Babakın məzarını ziyarət edib, üzərinə tər çiçəklər düzüb, xatirəsini ehtiramla anıblar.

Anım tədbirində müharibə veteranları, O.Babakın valideynləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Azərbaycan və Ukraynanın Dövlət himnləri səsləndirildikdən sonra çıxış edən hərbi attaşe Ə.Nuriyev bildirib ki, Azərbaycan dövləti irqindən, milliyyətindən asılı olmayaraq, Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçənlərin xatirəsini əziz tutur, onların ailə üzvləri və yaxınlarına diqqət və qayğı ilə yanaşırlar. "Oleq Babakın ruhu şaddır, çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib ordumuz torpaqlarımızı, o cümlədən Qubadlı rayonunu işğaldan azad edib. İndi həmin ərazilərdə yenidənqurma və bərpa işləri aparılır".



Anım tədbirində çıxış edən digər iştirakçılar Oleq Babakın keçdiyi qəhrəmanlıq yolundan danışıblar.

O.Babakın anası Nadiya Babak göstərilən diqqət və qayğıya görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib: "Oleq Babakın xatirəsi Azərbaycan xalqı tərəfindən həmişə əziz tutulur, yad edilir. Azərbaycan dövləti bizə hər zaman diqqət və qayğı ilə yanaşır".

Anası O.Babakın uşaqlıqdan məsuliyyətli olduğunu xatırlayaraq deyib: "Məktəbdə həmişə nizam-intizamlı idi. Uşaqlıqdan əsgər olmaq kimi bir arzusu vardı. O, qəhrəmanlığı ilə insanların sevgisini qazandı. Onun əziz xatirəsi həm Azərbaycanda, həm də Ukraynada daim yad edilir. Azərbaycan xalqı Oleq Babakın göstərdiyi qəhrəmanlığı unutmayıb".

Poltava vilayətinin Piryatin şəhər merinin müavini Qennadi Brovar bildirib ki, Oleq Babak tək Ukraynanın deyil, həm də Azərbaycan xalqının qəhrəmanıdır. "Oleq Babak mülki şəxsləri müdafiə etmək üçün tərəddüd etmədən canını qurban verib, çünki valideynləri ona bunu öyrədiblər, əsl qəhrəman, xeyirxah insan kimi böyüdüblər. Qəhrəmanlar doğulmur, onlar yaradılırlar. Oleq Babak düzgün olanı etmək üçün qəhrəman kimi mübarizə apardı".

Qeyd edək ki, Oleq Babak 1967-ci il fevralın 25-də Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində doğulub. SSRİ-nin Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlı 21-ci briqadanın siyasi hazırlıq üzrə bölük komandirinin müavini olan Oleq Babak 1991-ci ilin martından Azərbaycanın Qubadlı rayonunda ictimai asayişin qorunması tapşırıqlarını yerinə yetirib.

SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının leytenantı Oleq Babak SSRİ prezidentinin 1991-ci il 17 sentyabr tarixli Fərmanı ilə ölümündən sonra "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb.

**Emil HÜSEYNLİ**
**AZƏRTAC-ın xüsusi müxbiri**



# Şəhid Ərtoğrul Nadirlinin xatirəsi dərin ehtiramla anılıb

*Sədərək rayon Şəhidlər xiyabanında Vətən uğrunda canından keçərək əbədiyyətə qovuşan şəhid Ərtoğrul Hümbət oğlu Nadirlinin doğum günü dərin ehtiram və böyük qürur hissi ilə qeyd olunub.*

Anım tədbirində əvvəlcə şəhidin məzarı ziyarət edilib, üzərinə tər güllər düzülüb, ruhuna dualar oxunub.

Tədbir iştirakçıları Şəhidlər xiyabanında uyuyan bütün qəhrəman Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Qeyd olunub ki, torpaqlarımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımız hər zaman xalqımızın qəlbində yaşayır və əbədi qürur mənbəyi olaraq yaddaşlara həkk olunur.

Çıxış edənlər şəhid Ərtoğrul Nadirlinin həyat və döyüş yolundan bəhs edərək onun göstərdiyi igidlik və şücaətin gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsi olduğunu vurğulayıblar. Bildirilib ki, Vətənə sonsuz sevgi, torpağa bağlılıq, milli-mənəvi dəyərlərə sədaqət kimi ali keyfiyyətlər məhz belə igidlərin timsalında daha parlaq şəkildə təcəssüm edilir.

Ərtoğrul Nadirli 1997-ci il martın 31-də NMR-nın Sədərək rayonunda anadan olub. 2012-2015-ci illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2015-2019-cu illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alıb. 2019-cu ildən hərbi xidmətə başlayan gənc zabit 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 2-də döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Göstərdiyi igidliyə görə Ərtoğrul Hümbət oğlu Nadirli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.




**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**





# Aprel döyüşlərinin 10-cu ildönümü münasibətilə silsilə tədbirlər keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, 2016-cı ilin Aprel döyüşlərində qazanılan qələbənin 10-cu ildönümü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə hərbi qulluqçular, Aprel döyüşlərinin iştirakçıları, şəhid ailələri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Şəhidlər xiyabanları ziyarət edilərək onların məzarları önünə gül dəstələri düzülüb, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçənlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər Aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, həmçinin hərbi qulluqçularımızın döyüşlərdə nümayiş etdirdikləri qəhrəmanlıq və şücaət nümunələrindən danışıblar.

Bildirilib ki, 2016-cı ilin Aprel döyüşləri Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qazanılan növbəti qələbələrin - Günnüt əməliyyatı, Tovuz döyüşləri, Vətən müharibəsi və antiterror əməliyyatı bütövlükdə şanlı Zəfərimizin başlanğıcı kimi qiymətləndirilir.



Tədbirlərin bədii hissəsində sənədli filmlər nümayiş olunub, şeirlər səsləndirilib, vətənpərvərlik mövzusunda musiqi nömrələri və ədəbi-musiqili kompozisiyalar təqdim edilib, döyüş iştirakçıları xatirələrini bölüşüblər.

Tədbirlər çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları şəhid ailələrinə baş çəkərək onların qayğıları ilə maraqlanıb, silahdaşlarının xatirələrinə ehtiramlarını ifadə ediblər.

* * *

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən "Aprel döyüşləri - Böyük Zəfərin başlanğıcı" tədbiri hər kəsin yaddaşında dərin iz buraxdı. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin iştirakı ilə baş tutan tədbirin aparıcısı leytenant İltifat Mirzəyev 10 il əvvəl təmas xəttində baş verən döyüşlərlə bağlı danışdı: "2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan Ordusu və Ermənistan silahlı qüvvələrinin bölmələri arasında baş vermiş 4 günlük müharibə zamanı bölmələrimiz Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri azad etdi, Füzuli rayonu istiqamətində yerləşən Lələtəpə yüksəkliyinə nəzarəti tam ələ keçirdi.

Hərbi əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələrinə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları, eləcə də 320 döyüşçü məhv edildi, 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı.

2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində düşmənin törətdiyi silahlı təxribatın qarşısının alınması və dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə fərqlənən bir qrup hərbi qulluqçumuz 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görüldü, orden və medallarla təltif edildi".

Aparıcı sonda qeyd etdi ki, Aprel döyüşlərinin əhəmiyyəti çox böyükdür. "Bu hadisələr Azərbaycan Ordusunun gücünü, şəxsi heyətin peşəkarlığını, döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. Eyni zamanda, bu döyüşlər 2020-ci ilin 27 sentyabrında başlayan İkinci Qarabağ müharibəsinə gedən yolun mühüm mərhələsi oldu".

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

Əlahiddə Ümumqoşun Orduda Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalan naxçıvanlı hərbi qulluqçular Rasim Əbdül oğlu Məmmədov və Qabil Əbdüləli oğlu Orucəliyevin əziz xatirəsinə həsr olunan tədbir keçirildi.

Əvvəlcə şəhidlərimizin xatirəsi ehtiramla anıldı, onların döyüşlərdə göstərdikləri igidlik nümunələrindən bəhs edildi.

Çıxış edənlər Aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbi qulluqçularımızın döyüş meydanında nümayiş etdirdiyi igidlik və şücaət nümunələrindən danışdılar.

Bildirildi ki, 2016-cı ilin Aprel döyüşləri Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan sonrakı qələbələrin, ümumilikdə şanlı Zəfərimizin başlanğıcı kimi tarixə düşüb. Bu tarixi Zəfərin qazanılmasında canlarından keçən şəhidlərimizin xatirələrini qədirbilən xalqımız daima əziz tutur, onların ailələri və yaxınları hər zaman dövlətimizin yüksək diqqət və qayğısı ilə əhatə olunurlar.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**





## *"Molla Nəsrəddin" - 120*

# "Dünyada sülh və asayişdən gözəl nə ola bilər?"

Dünya şöhrəti qazanmış mənəvi mədəniyyət abidələrindən biri sayılan, XX əsrin əvvəllərində nəşrinə icazə verilən qüdrətli satira jurnalı "Molla Nəsrəddin" tarixə mübariz orjinal mətbuat orqanı kimi daxil oldu. "Molla Nəsrəddin" sözünün kəsəri qılınca bənzədildi. Satira atəşi öldürücü gücə malik idi. Jurnal Azərbaycan xalqının və bütövlükdə Şərqin oyanmasında, inkişafında böyük rol oynadı.

Azərbaycan satira mətbuatının yaranmasında böyük rol oynayan "Molla Nəsrəddin" satirik jurnalının nəşrə başlanmasından 120 ilə yaxın vaxt keçir. Satirik mətbuatımızın ən qiymətli nümunələrindən və öncüllərindən biri sayılan "Molla Nəsrəddin" jurnalı dahi Azərbaycan yazıçısı, dramaturqu, naşiri Cəlil Məmmədquluzadənin təşəbbüsü, eyni zamanda, rəhbərliyi və redaktorluğu ilə dərc olunmuşdur. Jurnalın buraxılmasına rəsmi icazə 26 fevral 1906-cı ildə alınsa da, Cəlil Məmmədquluzadə Ömər Faiq Nemanzadə ilə birlikdə ilk sayının nəşrinə hazırlaşmağa başladı. Yüksək səviyyədə nəşr olunan jurnalın 7 aprel 1906-cı ildə ilk sayı oxucular tərəfindən böyük hərarətlə qarşılandı. Təkcə iki min nüsxəlik tirajın bir günə beş yüz nüsxəsi Tiflisdə satıldı. Bu da o zaman üçün kiçik rəqəm deyildi.

Mətbuat tariximizə satira jurnalı kimi daxil olan "Molla Nəsrəddin"in banisi, tanınmış mütəfəkkir yazıçı, ictimai xadim C.Məmmədquluzadə jurnalın yaranması tarixindən danışarkən deyirdi: "Molla Nəsrəddin"i təbiət özü yaratdı".

Başqa bir yerdə eyni fikri daha da konkretləşdirərək yazırdı ki, bizi 1905-ci il inqilabı zamanı çar hökumətinə atılan bombalar ayıltdı. Satirik məcmuə sayılan "Molla Nəsrəddin" öz ideya qidasını dövrünün, zamanın çağlayan varlığından alırdı.

Jurnal yarandığı ilk gündən öz səhifələrində Azərbaycanın ziyalı zümrəsinə geniş yer ayırmışdı. Hər zaman müasir mütərəqqi fikirlərlə çıxış edən görkəmli yazıçı və şairlərin yazıları qaranlığa işıq, nur çilədi. Ən fəal mollanəsrəddinçilər - görkəmli şair Mirzə Ələkbər Sabir, istedadlı publisist Ömər Faiq Nemanzadə, realist ədəbiyyatın böyük simaları Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Salman Mümtaz və başqaları müxtəlif imza və təxəllüslərlə çıxış edərək Azərbaycan milli satirik jurnalistikasının nadir və dəyərli nümunələrini yaratdılar. Jurnalda əks olunan rəsmləri Tiflisdəki digər satirik nəşrlərdə fəal iştirak edən realist sənətkarlar - Şmerlinq və Rotter çəkirdilər.

Milli mətbuat tariximizdə "Molla Nəsrəddin" ilk satirik mətbu orqanı kimi dövrün mütərəqqi qüvvələrini, işıqlı insanlarını ətrafına toplayır və qələm əhli üçün bu qədər məhrəm, yaradıcılıq ocağı, ədəbi jurnalistika mərkəzi yaradır. Yaradıcı qüvvələrin səyləri sayəsində jurnal qısa zaman ərzində millətin etibarlı məsləhətçisi və




yolgöstərəni olur. Jurnalın satira atəşi çoxyönlü, aramsız və amansız idi. Müəllifin satirik təsvir üsulları və vasitələri ilə açılan atəşinin məqsədi xalqı qəflət yuxusundan oyatmaq olur. "Molla Nəsrəddin"in səhifələrində diqqəti cəlb edən mütərəqqi vətənpərvər ideyalardan biri Mirzə Fətəli Axundzadə və "Əkinçi" qəzeti sayəsində formalaşıb inkişaf edən milli ədəbi dili daha uca tərəqqiyə çatdırmaq ideyası idi.

Cəlil Məmmədquluzadə "Yazıda böyük cürətimiz o oldu ki, açıq ana dilində yazmaqdan biz utanmadıq" deməkdə çox haqlı idi. "Molla Nəsrəddin" zəngin ənənələri olan Azərbaycan satirik ədəbiyyatını ideya-sənətkarlıq cəhətdən daha da inkişaf etdirərək yeni, yüksək səviyyəyə qaldırdı, milli mətbuatın tarixində qabaqcıl satirik jurnalistikanın möhkəm bünövrəsini qoydu.

Bir məqama diqqət çəkək. Jurnalın əyalət xəbərləri bölməsində verilən, İrəvan erməni-müsəlman müharibəsindən bəhs edən yazılarda xalqımızın başına gətirilən müsibətlərdən danışıldığının şahidi oluruq. Həmin məzmunda verilən xəbərlər bu günümüzlə səsləşən tarixi yazılar toplusuna çevrilib.

Hələ əsrin əvvəllərində Şuşanı doğma vətəni sayan Qarabağ ermənisinin çar Rusiyasının mətbuatında nəşr etdirdiyi məktubunu "Molla Nəsrəddin" öz səhifələrinə çıxararaq satiranın öldürücü gülüşünə tuş etmişdi. Jurnalın səhifələrini vərəqləyərkən keçmişimizlə bu günümüzün çox məqamlarının eynilik təşkil etdiyinin və bu gün 100 il əvvəlki tarixin təkrarlanmasının bir daha şahidi oluruq. Hələ keçən əsrin ilk illərində erməni qızlarının "Hayastan" - deyə ucadan qışqırdığını görən, onların arasında olan söhbəti "Molla Nəsrəddin" iti uclu, ağ lələk qələmi ilə özünəməxsus, satirik tərzdə səhifələrində öldürücü gülüşdə təqdim etmişdi. "Erməni qızı sağ əlini yuxarı qalxızıb bir neçə dəfə ucadan dedi: ax, ax, eşidirsənmi, Hayastan, eşıdirsənmi, Hayreq..." Yazını oxuduqca deyirəm ki, Allah sənə rəhmət eləsin, ay Molla Nəsrəddin, sən necə uzaqgörən insan olmusan. Nə yaxşı ki, həmin məqamlara diqqət göstərib, yaddaşına köçürərək, qələmə almısan, bu günümüzə, zəmanəmizə, bizə - həmvətənlərinə çatdırmısan. Ayılmayanları ayıltmaq, yatanları oyatmaq, həqiqətin gözünü açmaq sənin məramın, məqsədin olub.

Zamanın tələbindən yaranan "Molla Nəsrəddin" keçən əsrin əvvəllərində baş verən tarixi dəyişikliklər dövründə öz sözünü açıq şəkildə, qorxmadan deməyi bacardı. Xalq "Molla Nəsrəddin"i özünün jurnalı, tribunası hesab edir və dərdini, sevincini onunla bölüşürdü. Acı həqiqəti meydana qoymaq əzmi jurnalın aparıcı prinsipi idi. O, həyatda baş verən eybəcərlikləri öldürücü satiralarda əks etdirirdi. Jurnalın 17 fevral 1907-ci ildə nəşr olunan sayında oxuyuruq: "A, yüz il bundan sonra dünyada yaşayan nəvə və nəticələrimiz! Bəlkə yüz il bundan sonra "Molla Nəsrəddin"in köhnəlmiş və qat yemiş vərəqələri tozlanmış və çürümüş kitabların içindən çıxıb düşə əlinizə və oxuyasınız! Mən qorxuram ki, o vədə deyəsiniz ki, bu rəhmətlik babalarımıza böhtan deyib, çünki bu yazdığı əməlləri heç qədim əsrlərdə Almaniyanın çardaq altında yaşayan millətləri də tutmazdılar! Ey xoşbəxt nəvə və nəticələrimiz! Qorxuram belə deyəsiniz".

"Dünyada sülh və asayişdən gözəl nə ola bilər?" Bu sözlər jurnalın bütün fəaliyyəti üçün səciyyəvi olan fikir kimi səsləndi. Onun əsl gücü də elə bunda idi...

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: Azərbaycan xanlıqlar dövründə.**

**Suallar:**

**1. Azərbaycan xanlıqlarının yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycan xanlıqları.**

### Azərbaycan xanlıqlarının yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət

XVIII əsrin I yarısında Azərbaycan ərazisində ölkənin sonrakı taleyinə çox ciddi və həm də mənfi təsir göstərmiş bir sıra ictimai-siyasi xarakterli hadisələr baş verdi. Azərbaycanda gedən tarixi proseslər Cənubi Qafqazda, Səfəvilər dövlətində, Osmanlı (Türkiyə) və Rusiya imperiyalarında cərəyan edən hadisələrlə sıx bağlı idi. Bu dövrdə Səfəvilər dövlətinin tam tənəzzülü ilə əlaqədar Cənubi Qafqaz ərazilərinə yiyələnmək uğrunda qarşıdurmalar gücləndi. Tarixi hadisələrin gedişinə təsir edən mühüm amillərdən biri də Rusiya imperiyasının bu regiondakı siyasi və iqtisadi marağının artması idi. Rusiya imperiyası özünün inkişaf etməkdə olan iqtisadiyyatını xammalla təmin etmək, Volqa-Xəzər ticarət yolunu inkişaf etdirib genişləndirmək məqsədilə Xəzəryanı vilayətlərə yiyələnməyə, Osmanlı imperiyasının həmin ərazilərdəki nüfuzunun artmasına mane olmağa çalışırdı. Azərbaycan faktiki olaraq XVIII əsrin ortalarından başlayaraq əsrin sonuna kimi 3 dövlətin - Qacarlar (İran) dövlətinin, Osmanlı və Rusiya imperiyalarının mənafelərinin toqquşduğu məkana çevrilmişdi. Ölkə ərazisi bu dövlətlərin arasında nüfuz dairələrinə parçalanırdı və təbii ki, belə bir vəziyyət Azərbaycanın tarixi-siyasi coğrafiyasına əsaslı təsir edirdi.

Hələ 1722-ci ildə I Pyotrun yürüşü nəticəsində Xəzərin bütün qərb və cənub-qərb sahilləri rus qoşunları tərəfindən zəbt olunmuşdu. 1723-cü ildə isə türk qoşunları Cənubi Qafqaza daxil oldu. 1724-cü ildə çar Rusiyası ilə Osmanlı imperiyası arasında bağlanan İstanbul müqaviləsinə görə Cənubi Qafqaz ərazisi iki dövlətin arasında nüfuz dairəsinə bölündü. Əsrin 30-cu illərində Azərbaycan ərazisi Səfəvi-Osmanlı imperiyaları arasında gedən yeni mübarizələrin obyektinə çevrildi.

Nadir şahın hakimiyyətə gəlməsi və fəaliyyəti Azərbaycan torpaqlarının parçalanması prosesinə ikitərəfli və əsaslı təsir göstərdi. Düzdür, o, Qarabağın məlikliklərini - Vərənd, Çiləbörd, Gülüstan, Dizaq və Xaçın ərazilərini Gəncə bəylərbəyliyinə tabe etdi və sonra isə Səfəvilərin inzibati bölgüsünə əsasən mövcud olan Qarabağ, Şirvan, Çuxursəəd və Təbriz bəylərbəyliklərini ləğv edərək Azərbaycan adı altında vahid inzibati bölgü yaratdı. Vahid Azərbaycanın mərkəzi Təbriz, hakimi isə Nadirin qardaşı İbrahim oldu. XVIII əsrin II yarısında Qazaxda azərbaycanlıların sultanlığı yaranır, Nadirin öldürülməsindən sonra (1747) onun dövləti süquta uğradı və ayrı-ayrı vilayətlərdə, o cümlədən Azərbaycanda ciddi parçalanma baş verdi. XVIII əsrin I yarısındakı dövr Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından aşağıdakı səciyyəvi cəhətlərə malikdir:

1. Səfəvilərin hakimiyyətinin sonuna (1736) kimi Azərbaycan ərazisi bəylərbəyliklərə (4 bəylərbəyliyə - Qarabağ, Şirvan, Çuxursəəd, Təbriz) bölünmüşdü;

2. Şirvan (Xəzəryanı sahələr istisna olmaqla) 1721-1735-ci illərdə əsarətdən azad olub müstəqilliyə nail olsa da, Osmanlı imperiyasının nominal asılılığında qalırdı;

3. Azərbaycanın Xəzəryanı əraziləri çar Rusiyasının tərkibinə daxil olmuşdu (1722-1735);

4. İstanbul müqaviləsinə əsasən (1724) Azərbaycan ərazisi Osmanlı imperiyası ilə çar Rusiyası arasında bölünmüşdü;

5. Rəşt (1732) və Gəncə (1735) müqavilələrinə görə Xəzəryanı ərazilər çar Rusiyasının nüfuz dairəsindən Səfəvilər dövlətinin nüfuz dairəsinə keçmişdi;

6. 1736-cı ildə Səfəvilər dövründəki bəylərbəylik sistemi ləğv edilmiş və 4 bəylərbəylik birləşdirilərək vahid Azərbaycan vilayəti yaradılmışdı;

7. Azərbaycanın Borçalı və Qazax əraziləri Nadir şah tərəfindən 1743-cü ildə Şirvanda yalançı Sam-Mirzənin başçılığı ilə Nadirə qarşı qalxmış üsyanı yatırdığından Kaxetiya çarı Teymuraza verilmişdi;

8. Nadirin ölümündən sonra ölkədə parçalanma prosesi şiddətlənmiş və Azərbaycan 30 (20 xanlıq, 5 sultanlıq və 5 məliklik) hissəyə ayrılmışdı.

### Azərbaycan xanlıqları

XVIII əsrin II yarısı da Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından xüsusi dövrüdür. Bir tərəfdən Azərbaycan öz müstəqilliyinə nail olur, qonşu dövlətlərin, imperiyaların nüfuzundan çıxa bilir, digər tərəfdən isə vahidliyini itirir və heç də geniş olmayan ərazisində çoxsaylı müstəqil feodal dövlətləri - xanlıqlar və başqa dövlət qurumları təşəkkül tapır.

Azərbaycanın XVIII əsrin II yarısındakı ərazisi Səfəvilər dövründəki ərazisindən çox da fərqlənmir. Yeganə fərq şimali-qərb istiqamətdə Borçalı ərazisinin itirilməsi idi. Ölkənin sahəsi təxminən 380.000 kv.km (Səfəvilər dövrü təxminən 400.000 kv. km) idi. XVIII əsrin 40-cı illəri - XIX əsrin I rübündə Azərbaycan ərazisində 20 xanlıq, 5 sultanlıq və 5 məliklik fəaliyyət göstərmişdi.

**Azərbaycanın cənub xanlıqları.**

- **Təbriz xanlığı** (XVIII əsrin ortaları-1780) Xoy, Ərdəbil, Sərab, Qaradağ, Marağa xanlıqları və Urmiya gölü ilə həmsərhəd idi. Əsası əfşar tayfasından Əmiraslan xan qoymuş mərkəzi Təbriz şəhəri idi. 1780-ci ildə xanlığın fəaliyyətinə son qoyularaq ərazisi Xoy xanlığının tərkibinə qatıldı.

- **Ərdəbil xanlığı** (XVIII əsrin ortaları-XVIII əsrin sonu) Talış, Qaradağ, Təbriz, Marağa, Maku, Sərab xanlıqları və Gilan vilayəti ilə həmsərhəd idi. Əsası Bədir xan tərəfindən qoyulmuş, mərkəzi Ərdəbil şəhəri idi. Əsrin əvvəllərində şahsevənlər 4 qola ayrılırlar və Ərdəbil, Mişkin, Talış və Qaradağda ayrı-ayrılıqda fəaliyyət göstərməyə başlayırlar. XVIII əsrin sonu Ərdəbil xanlığı Qacarlar dövlətindən asılı vəziyyətə düşdü və fəaliyyətinə son qoyuldu.

- **Marağa xanlığı** (XVIII əsrin ortaları-XVIII əsrin sonu) cənubda Saqqız mahalı, şimalda Təbriz, qərbdən Urmiya, şərqdə Ərdəbil xanlıqları ilə həmsərhəd idi. Əsası müqəddəm (Qarabağın Cavanşir elinin bir qolu) tayfasının başçısı Əliqulu xan tərəfindən qoyulmuş və mərkəzi Marağa şəhəri idi. XVIII əsrin sonu Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliyini itirmişdi.

- **Maku xanlığı** (XVIII əsrin ortaları-XVIII əsrin sonu) Səfəvilər dövründə Çuxursəəd bəylərbəyliyinin tərkibinə daxil idi. Maku xanlığı bayat tayfası tərəfindən idarə olunmuş və XVIII əsrin sonu Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliyini itirmişdi.

- **Qaradağ xanlığı** (XVIII əsrin ortaları-1782) Lənkəran, Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Qarabağ və Cavad xanlıqları ilə hüdudlanırdı. Əsası Kazım xan tərəfindən qoyulmuş və mərkəzi Əhər şəhəri olmuşdur. 1782-ci ildə Qarabağ və Xoy xanlıqları arasında bölüşdürülərək öz müstəqilliyini itirmişdi.

- **Sərab xanlığı** (XVIII əsrin ortaları-1786) Ərdəbil və Təbriz xanlıqları ilə həmsərhəd idi. Mərkəzi Sərab şəhəri idi. Əsası şəqaqi tayfasının başçısı Əli xan tərəfindən qoyulmuşdu. XVIII əsrin sonu Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliyini itirmişdi.

- **Xoy xanlığı** (XVIII əsrin ortaları-XVIII əsrin sonu) Maku, Naxçıvan, Qaradağ, Təbriz, Urmiya xanlıqları və Osmanlı imperiyası ilə həmsərhəd idi. Əsası Şahbaz xan tərəfindən qoyulmuş və mərkəzi Xoy şəhəri idi. XVIII əsrin sonu Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliyini itirmişdi.

- **Urmiya xanlığı** (XVIII əsrin ortaları-XVIII əsrin sonu) şimalda Xoy xanlığı, şərqdə Urmiya gölü və Marağa xanlığı, cənubda və qərbdə Osmanlı imperiyası ilə həmsərhəd olmuşdur. Mərkəzi Urmiya şəhəri idi. Əsası Urmiyanın irsi hakimi olan əfşar tayfa başçısı Fətəli xan Əfşar tərəfindən qoyulmuşdu. XVIII əsrin sonu Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliyini itirmişdi.

**Azərbaycanın şimal xanlıqları.**

- **Qarabağ xanlığı** (XVIII əsrin ortaları-1822) Kür və Araz çayları arasında mövcud olmuş, mərkəzi Şuşa şəhəri idi. Sərhədləri Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə hüdudlanırdı. Pənahəli xan Cavanşir tərəfindən təsis olunmuşdur. Onun dövründə Bayat, Şahbulaq qalaları tikilmiş, Əsgəran qalası möhkəmləndirilmiş, Şuşa (Pənahabad) şəhərinin əsası qoyulmuşdur. Əhalisini Cavanşir, İyirmi dörd, Otuzikilər, Kəbirli, Ziyadoğlu, Baharlı Tük tayfaları təşkil edirdilər. Xanlıq 1805-ci ildə Kürəkçay müqaviləsinə əsasən çar Rusiyasına ilhaq edilmiş və 1822-ci ildə çar fərmanı ilə ləğv edilmişdi.

- **Şəki xanlığı** (XVIII əsrin ortaları-1819) İlisu sultanlığı, Şamaxı, Qarabağ, Gəncə, Quba xanlıqları ilə həmsərhəd olmuş, mərkəzi Nuxa şəhəri idi. Təsisçisi Hacı Çələbi xan olmuşdur. Şəki xanlığı Azərbaycanın ən iri xanlıqlarından olmuş və onun ərazisi 8 mahala bölünmüşdür. Qəbələ və Ərəş sultanlıqları da Şəki xanlığından asılı idilər. Xanlıq 1805-ci ildə ikinci Kürəkçay müqaviləsinə əsasən çar Rusiyasına ilhaq edilmiş, 1819-cu ildə isə çar fərmanına əsasən ləğv olunub.

- **Quba xanlığı** (1726-1806) Azərbaycanın şimali-şərqində mövcud olmuşdur. 1724-cü ildə çar Rusiyasının tərkibinə daxil edilmiş və Hüseynəli xan xanlığın hakimi təyin olunmuşdu. Əyalətin paytaxtı əvvəl Xudat, 1735-ci ildən isə Quba şəhəri olmuşdur. Xanlıq Xəzər dənizi, Dərbənd xanlığı və Tabasaran əraziləri, Şəki, Şamaxı, Bakı xanlıqları ilə həmsərhəd idi. Quba xanlığı öz qüdrəti ilə seçildiyindən bəzən Dərbənddən Salyana (əsrin 60-cı illərində) kimi ərazilər onun nüfuz dairəsində olmuşdur. Quba xanlığı 1806-cı ildə çar Rusiyasına ilhaq edilmişdi.

- **Bakı xanlığı** (XVIII əsrin ortaları-1806) Nadir şahın ölümündən sonra yerli feodallardan biri olan Mirzə Məhəmməd xan tərəfindən əsası qoyulmuşdur. Xanlığın ərazisi Abşeron yarımadası və Bakı şəhərini əhatə edirdi. Paytaxtı Bakı şəhəri olmuş, Şamaxı və Quba xanlıqları ilə həmsərhəd idi. 1806-cı ildə Azərbaycanın şimalı və Bakı xanlığı çar Rusiyasına ilhaq olundu.

- **Dərbənd xanlığı** (XVIII əsrin ortaları-1806) əsası Məhəmməd Hüseyn xan tərəfindən qoyulmuş və Azərbaycanın şimali-şərqində fəaliyyət göstərmişdir. Qaraqaytaq usmiliyi, Tabasaran, Qazıqumuq və Quba xanlığı ilə həmsərhəd idi. Paytaxtı Dərbənd şəhəri olmuşdur. Xanlıq 40 il Quba xanlığından asılı olmuşdur. Xanlığın fəaliyyətinə 1806-cı ildə son qoyulmuş və çar Rusiyasının əyalətinə çevrilmişdi.

- **Gəncə xanlığı** (XVIII əsrin ortaları-1804) Murovdağ silsiləsindən Kür çayına kimi olan əraziləri əhatə edirdi. Xanlığın əsasını Qacar tayfasının Ziyadoğlular nəslindən olan Şahverdi xan qoymuşdur. Xanlıq Şəki, Qarabağ, İrəvan xanlıqları, Qazax, Şəmşəddil sultanlıqları və Gürcüstanla həmsərhəd idi. Paytaxtı Gəncə şəhəri olmuşdur. 1786-cı ildə hakimiyyətə gələn Cavad xan 1804-cü il yanvarın 3-də Sisianovla döyüşdə öldürüldükdən sonra xanlığın ərazisi çar Rusiyasına ilhaq olundu.

- **İrəvan xanlığı** (XVIII əsrin ortaları-1828) Ağrı vadisi Dərələyəz və Göyçə gölü arasındakı torpaqlarda yerləşirdi. Naxçıvan, Qarabağ, Maku xanlıqları, Osmanlı imperiyası, Kartil-Kaxetiya çarlığı və Borçalı, Qazax sultanlıqları ilə həmsərhəd olmuşdur. Xanlığın əsasını Mir Mehdi xan Əfşar qoymuş, mərkəzi İrəvan şəhəri idi. Gülüstan (1813) müqaviləsinə görə Qacarlar dövlətinin, Türkmənçay (1828) müqaviləsinə əsasən isə çar Rusiyasına birləşdirilmişdi.

- **Lənkəran** (Talış) xanlığı (XVIII əsrin ortaları-1826) Talış dağları, Xəzər dənizi və Muğan düzü arasındakı torpaqlar, Gilan, Ərdəbil, Qaradağ, Cavad, Salyan xanlıqları həmsərhəd idi. Xanlığın əsasını səfəvi nəslindən olan Cəmalləddin Mirzə bəy (Qara xan) qoymuşdur. Mərkəzi qızılağaclı Musanın dövründə Astara, ərdəbilli seyid Abbasin dövründə isə Lənkəran şəhəri olmuşdur. Xanlıq 1800-cü ildə çar Rusiyasının nüfuz dairəsinə düşmüş və 1826-cı ildə çar fərmanı ilə ləğv edilmişdi.

- **Naxçıvan xanlığı** (XVIII əsrin ortaları-1827) Zəngəzur dağlarından Araz çayına kimi olan əraziləri əhatə edirdi. Xanlıq Kəngərli tayfasının başçısı Heydərqulu xan tərəfindən yaradılmışdır. Mərkəzi Naxçıvan şəhəri olan xanlıq İrəvan, Qarabağ və Maku xanlıqları ilə həmsərhəd olmuşdur. 1797-ci ildə xanlıq Qacarlar dövlətindən asılı vəziyyətə düşmüş, 1828-ci ildən isə Türkmənçay müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdi.

- **Salyan xanlığı** son vaxtlara qədər "Salyan sultanlığı" kimi tanınırdı və qonşu xanlıqların tərkibində göstərilirdi. Lakin son tarixi ədəbiyyatda onun Kür çayının mənsəbində kiçik xanlıq olduğu bildirilir. Xanlıq Xəzər dənizi, Şamaxı, Cavad və Talış xanlıqları ilə həmsərhəd idi.

- **Cavad xanlığı** (XVIII əsrin ortaları-1813) Kür ilə Arazın qovuşduğu yerdə mövcud olmuşdur. Şamaxı, Qarabağ, Qaradağ, Lənkəran və Salyan xanlıqları ilə həmsərhəd idi. Xanlığın əsasını şahsevən tayfasından Həsən xan qoymuş, mərkəzi Cavad olmuşdur. 1768-ci ildən Quba xanlığından asılı olmuş və onun tərkibində çar Rusiyasına birləşdirilmişdi.

(Ardı 8-ci səhifədə)

## Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(Əvvəli 7-ci səhifədə)

- **Şamaxı** (Şirvan) xanlığı (1748-1820) Bakı, Quba, Şəki, Qarabağ xanlıqları və Kür çayı ilə həmsərhəd idi. Əsası Hacı Məhəmmədəli bəy, Məhəmməd Səid bəy və Ağası qardaşları tərəfindən qoyulmuş, paytaxtı bir müddət Ağsu və sonra Şamaxı şəhəri olmuşdur. Xanlıq 1805-ci ildə çar Rusiyasının əsarətinə düşmüş və 1820-ci ildə çar fərmanına əsasən ləğv edilmişdi.

Azərbaycan ərazisində xanlıqlarla yanaşı, sultanlıqlar və məlikliklər də mövcud olmuşdur. Sultanlıq-sultanın başçılıq etdiyi monarxiya dövləti idi. Məliklik isə məliklər tərəfindən idarə olunan kiçik feodal hakimliyindən ibarət idi. Məliklik "xəmsə" (beşlik) də adlanırdı. Səfəvilər dövlətinin inzibati ərazi vahidlərindən biri məliklik olmuş və 5 feodal hakimliyini (Qarabağ xanlığının tərkibində) - Vərəndə, Dizaq, Xaçın, Gülüstan və Çiləbörd hakimliklərini birləşdirmişdi. Azərbaycanda Qazax, Şəmşəddil, Ərəş, İlisu, Qəbələ sultanlıqların və Car-Balakən camaatlığının adına təsadüf edilir.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində, özünün dövlətçilik ənənələrini qoruyub saxlaya bilmiş, hətta Şərq və Qərb dünyasında özünəməxsusluğu ilə seçilən qüdrətli imperiyalar yaratmışdır. Bu, həm Manna, Atropatena, Albaniya kimi qədim, həm də Şirvanşahlar, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi qüdrətli orta əsr dövlətlərinin, həmçinin ərazi cəhətdən kiçik olsa da, xanlıqlar kimi siyasi müstəqilliyə malik son orta əsr dövlətlərimizin timsalında özünü göstərmişdi.

Bugünkü inkişafımızın təməlini təşkil edən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik ideyaları, XX yüzilliyin sonu Azərbaycan xalqının dövlətçilik uğrunda apardığı mübarizəsi və qan yaddaşımızda əbədi yaşayacaq hadisələrin içərisində müstəqilliyimizin ilk otuz illik dövrünün keşməkeşləri, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun apardığı 44 günlük Vətən müharibəsinin, antiterror əməliyyatının heç vaxt silinməyəcək izləri əsrlər boyunca gələcək nəsillərimizin fikir və düşüncələrinə hakim kəsiləcək, şanlı tariximizə qızıl hərflərlə qeyd ediləcəkdir. Bu gün hər birimiz əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətçilik amallarını, yüksək ideyalarını yaşatmaq və gələcək nəsillərə çatdırmaq, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə, onun ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməliyik.

**İdeoloji Təminat İdarəsi**

*Hərbi texnikalar, silahlar*

## Beretta ARX-160 silahı





ARX-160 tüfəngi İtaliya silah istehsalçısı olan "Beretta" şirkəti tərəfindən İtaliya Silahlı Qüvvələrinin "Soldato Futuro" ("Gələcəyin Əsgəri") proqramı çərçivəsində hazırlanan modern, modulyar avtomat silahdır. 2008-ci ildə istifadəyə verilən silah yüngül, dayanıqlı və geniş modifikasiya imkanları çərçivəsində dizayn edilib. 2008-ci ildə təqdim olunmasına baxmayaraq, ARX-160 tüfəngi qısa müddətdə Avropa və Yaxın Şərq ölkələrinin xüsusi təyinatlı bölmələrinin silahlanmasında yer alıb.

Müasir dizaynlarda olduğu kimi, onun aşağı hissəsi polimerdən, yuxarı hissəsi alüminiumdan hazırlanıb. O, 3 mövqeli selektora malikdir və yarımavtomatik və tam avtomatik rejimlərdə atəş aça bilir. Silahın qatlanan və uzunluğu tənzimlənə bilən qundağı döyüş şəraitində hərəkətin rahatlığını təmin edir.



ARX-160 elektro-optik nişangah və yeni 40 mm-lik GLX 160 lüləaltı qumbaraatanla təchiz olunub. Silahda lazer məsafəölçən, nişanlama sistemində gecə, gündüz və normal optik kanallar mövcuddur.

ARX-160 tüfənginin əsas kalibri 5.56x45 mm NATO standartıdır. Bəzi ölkələr üçün 7.62x39 mm olan versiyası da hazırlanıb. Silahın təsirli atəş məsafəsi 500-600 metr, atış sürəti isə dəqiqədə 700-900 güllə arasında dəyişir. İstifadəçi gilizlərin sağdan və ya soldan atılmasını bir düymə ilə asanlıqla dəyişə bilər.

ARX-160-ın digər üstünlüklərindən biri də alov söndürən və səsboğucu qurğularla işləməsidir. Bundan əlavə, tüfəngin lüləsi döyüş şəraitində heç bir alət tələb olunmadan bir neçə saniyə ərzində dəyişdirilə bilər. Silahın boş halda çəkisi təxminən 3.0-3.1 kiloqramdır (lülənin uzunluğundan asılı olaraq).

Silah -30°C-dən +50°C-yə qədər olan sərt iqlim şəraitində sabit işləyir. Bundan başqa, ARX-160 üçün xüsusi təlim kompleksi mövcuddur və bu sistem lazer simulyatoru ilə elektron hədəf mexanizmlərini birləşdirərək real döyüş situasiyalarını imitasiya etməyə imkan verir. Silahın bu xüsusiyyəti xüsusi təyinatlıların döyüş hazırlığında mühüm rol oynayır.

**"Azərbaycan Ordusu"**

## Xəbərlər: hadisələr, faktlar

### Fransa 2030-cu ilə qədər raket və PUA arsenalını dördqat artırmağı planlaşdırır



Fransa gərgin döyüşlər zamanı silah istehlakının əhəmiyyətli dərəcədə artdığını nəzərə alaraq, yenilənmiş hərbi planlaşdırma qanun layihəsi çərçivəsində növbəti bir neçə il ərzində raket və pilotsuz uçuş aparatları (PUA) arsenalını dördqat artırmağı planlaşdırır.

Bu barədə sənədləri nəzərdən keçirən "Politico" məlumat yayıb.

Nəşrin məlumatına görə, Fransa hökumətinin aprelin 8-də təqdim etməyi planlaşdırdığı yeni qanun layihəsi 2030-cu ilə qədər PUA və raket proqramları üçün 8,5 milyard avro vəsait ayrılmasını nəzərdə tutur. Qanun layihəsində silahların tədarükü və inkişafı üzrə konkret hədəflər müəyyən edilir.

64 səhifəlik layihə sənədində "sifariş və çatdırılmaların artırılması, həmçinin prioritet istehsal güclərinin birgə maliyyələşdirilməsi yolu ilə sənaye infrastrukturunun uyğunlaşdırılması" tələb olunur. Sənəd müəllifləri bildirirlər ki, bu tədbirlər "müharibə iqtisadiyyatına" hazırlıq məqsədi daşıyır.

### Polşa ölkədəki Amerika hərbi kontingentinin artırılmasına maraqlıdır



Polşa ölkədə yerləşən ABŞ qoşunlarının sayının artırılmasına ümid edir.

Bunu müdafiə naziri Vladislav Kosinyak-Kamış "Rzeczpospolita" qəzetinə müsahibəsində deyib. "Biz Polşada Amerika qoşunlarının mövcudluğunu artırmağa ümid edirik", - deyə o bildirib və əlavə edib ki, bu, "Yaxın Şərqdəki vəziyyətdən asılı deyil". Nazirin sözlərinə görə, NATO-nun şərq cinahının gücləndirilməsi ilə bağlı Vaşinqtonla danışıqlar uzun müddətdir davam edir. Yaxın Şərqdəki vəziyyət bir neçə aydır hazırlıq mərhələsində olan planın həyata keçirilməsinə manea törətmir.

Hazırda Polşada təxminən 10 min Amerika hərbçisi var.

### Nigeriyada silahlıların hücumu nəticəsində 60-dan çox insan öldürülüb



Nigeriyanın şimal-qərbində silahlıların hücumları nəticəsində 60-dan çox insan qətlə yetirilib. Şiroro regionundakı Erena qəsəbəsinə hücum nəticəsində ən azı 20 nəfər ölüb. Silahlıların Kibi vilayətindəki qəsəbələrə hücumları isə 40-dan çox sakinin ölümünə səbəb olub.

Qeyd olunur ki, Nigeriya təxminən 20 ildir əsasən şimal və şimal-şərq bölgələrində, son dövrlərdə isə cənub-şərqdə terrorizmlə mübarizə aparır. 2025-ci ilin dekabr ayından etibarən ABŞ bu istiqamətdə Nigeriyaya dəstək verir, ölkəyə yüzlərlə hərbçi, silah və sursat göndərir. Buna baxmayaraq, əsasən Boko Haram qruplaşmasının həyata keçirdiyi hücumlar yeni ərazilərə yayılmaqda davam edir.

**AZƏRTAC-ın materialları əsasında**

## İdman

### Azərbaycan gimnastları "AGF Trophy" turnirini 6 medalla başa vurublar



Bakıda keçirilən bədii gimnastika üzrə "AGF Trophy" beynəlxalq turniri başa çatıb.

Azərbaycan gimnastları yarışı 1-i qızıl, 3-ü gümüş, 2-si bürünc olmaqla ümumilikdə 6 medalla başa vurublar.

Təmsilçilərimizdən Gövhər İbrahimova lent proqramında bürünc medal əldə edib. O, həmçinin halqa ilə hərəkətlərdə eyni uğura imza atıb.

Fidan Qurbanlı top proqramında gümüş medal qazanıb.

Azadə Atakişiyeva isə lent proqramında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, həmçinin topla hərəkətlərin icrasında ikinci olub.

Gimnastlarımız ötən gün komanda hesabında gümüş medala yiyələniblər.

Turnirdə 15 ölkədən olan gimnastlar mübarizə aparıblar.

### Azərbaycan güləşçisi ABŞ-də bürünc medal qazanıb



Sərbəst güləş üzrə U-20 millisinin və Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının (AİJA) idmançısı Nicat Həsənov Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində keçirilən "Journeymen World Classic" beynəlxalq turnirində bürünc medal qazanıb.

63.5 kiloqram çəki dərəcəsində çıxış edən idmançı iki amerikalı rəqibinə qalib gəldikdən sonra yarımfinalda Kanada idmançısına məğlub olaraq 3-cü yer uğrunda mübarizəni davam etdirib. O, bürünc medal görüşündə Gürcüstan təmsilçisinə qalib gələrək fəxri kürsüdə yer alıb.

Qeyd edək ki, ABŞ və Azərbaycan arasında güləş əlaqələrinin inkişafına verdiyi töhfəyə görə turnirin təşkilatçısı Frank Popolizio Azərbaycan Güləş Federasiyası tərəfindən təşəkkürnamə ilə təltif edilib. Turnirin təşkilatı işlərinə cavabdeh Marilena Popolizioya üzərində Azərbaycan mədəniyyətini və incəsənətini özündə əks etdirən hədiyyələr təqdim olunub.

**AZƏRTAC-ın materialları əsasında**

Baş gizir Ataxanov Kənan Şerqo oğluna verilmiş SQ № 0019330 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rəşidli Kənan Zabil oğluna verilmiş AD № 0054035 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Nəhmətov Ruslan Rasim oğluna verilmiş MV № 162339 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Tədqim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 347
Nüsxə 3653